UOT:94.(479.)24.

# ƏT – TƏBƏRİNİN ”TARİX ƏR – RÜSUL VA – L - MÜLUK”ƏSƏRİ AZƏBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ BİR MƏNBƏ KİMİ

***Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
***elminaznamazova@mail.ru***

**Xülasə:** *Azərbaycanın orta əsrlər tarixinə dair məlumat verən ərəbdilli mənbələrdən biri də ət-Təbərinin "Tərix ər-rüsul va-l-müluk" (bəzən qısaca olaraq "Tərix ət-Təbəri" kimi) adlanan şah əsəridir. Ət-Təbərinin adı çəkilən əsərində Azərbaycanın hüdudları, şəhərləri və əhalisinin etnik tərkibi haqqında maraqlı məlumatlarla rast gəlinir.*

*Əsərdə verilən məlumat VII-IX əsrlərdə Azərbaycanın siyasi tarixinin mənzərəsini təsəvvür etməyə imkan verən əsas mənbədir. Həmçinin əsər Azərbaycanın orta əsrlər tarixinə dair qiymətli məlumatlarla zəngindir.*

*Ət-Təbərinin Azərbaycan xürrəmilərinin xilafətə qarşı üsyanını xarakterizə edən materialları, xəlifə əl-Mötəsim dövründə ərəb ordularının baş komandanı Afşin Heydər ibn Kavusun fəaliyyəti, onun Babəklə əlaqələri, Babək və Təbəristan hakimi Məzyərlə danışıqları, Babək qalib gəldiyi təqdirdə Xilafəti devirmək və parçalamaq planları, habelə Babəkin Bizans imperatoru Feofillə yazışması haqqındakı məlumatı xüsusilə qiymətlidir.*

*Ət-Təbərinin əsərində Xilafətin siyasi həyatında türklərin rolu və Azərbaycanda onların fəaliyyəti haqqında mühüm məlumatlar da öz əksini tapmışdır.*

*Ət-Təbərinin Azərbaycan tarixi üzrə verdiyi məlumat ona görə etibarlı sayılır ki, o, özündən qabaqkı müəlliflərin, həm də başlıca olaraq ərəblərin işğalçılıq yürüşlərində iştirak edənlərin əsərlərinə istinad edir, bu və ya başqa hadisəni yadda saxlayan şahidlərin şifahi məlumatlarına əsaslanır.*

*Ərəbdilli mənbələrdə, o cümlədən, ət-Təbərinin əsərində türklərin Azərbaycan torpaqlarında qədim dövrlərdən yaşaması haqqında bir sıra faktlar da öz əksini tapmışdır.*

**Açar sözlər:** Azərbaycan, ərəbdilli mənbələr, ət-Təbəri, Xilafət, orta əsrlər, VII-IX əsrlər

**Ключевые слова:** Азербайджан, арабоязычные источники, Ат-Табари, Халифат, средние века, VII-IX века

**Keywords:** Azerbaijan, Arabic-language sources, At-Tabari, Caliphate, Middle Ages, VII-IX centuries

Dünya dövlətləri uzun müddət öz tarixini müsəlman tarixi məktəbinə məxsus yazılı abidələr vasitəsi ilə bərpa etmişdir. Bu cəhətdən Qafqaz və o cümlədən Azərbaycan tarixi də istisna deyil.[1,199].

Qafqazın, eyni zamanda Azərbaycan tarixinin müxtəlif mərhələlərinin əks olunduğu ilk ərəbdilli tarixi əsərlər IX əsrdə yaradılmışdır. Azərbaycanın orta əsrlər tarixinə dair məlumat verən ərəbdilli müəlliflərdən biri də Ət-Təbəridir. Əbu Cəfər Mühəmməd ibn Cərir ət-Təbəri 839-cu ildə İranın Təbəristan (indiki Mazandaran) vilayətinin mərkəz şəhəri Amulda dehqan (mülkədar) ailəsində dünyaya gəlib. Ömrünün sonunadək Bağdadda yaşayan ət-Təbəri 923-cü ildə orada vəfat edir.[2,71].

Ət-Təbərini bir tarixçi kimi tanıtdıran onun "Tərix ər-rüsul va-l-müluk" (Peyğəmbərlərin və hökmdarların tarixi), (bəzən qısaca olaraq "Tərix ət-Təbəri" kimi) adlanan şah əsəridir. Bu çoxcildli əsər dünyanın yaranması tarixindən başlayaraq müəllifin zəmanəsinə qədər olan böyük bir dövrü əhatə edir. "Tərix ər-rüsul va-l-müluk" - islam aləminin tarixinə həsr olunmu ilk dolğun və mükəmməl əsərdir. Ət-Təbərinin bu əsəri Xilafət tərkibindəki ölkələrin, o cümlədən də Azərbaycanın orta əsrlər tarixinə dair qiymətli məlumatlarla zəngindir. Əsərdəki hadisələrin şərhi xronoloji olaraq 915-ci ilə kimi çatdırılır.[2,72].

Ət-Təbərinin "Tarix" inin nəşri isə yalnız XIX əsrin sonlarında Avropa Şərqşünaslarının birgə səyləri nəticəsində mümkün olmuşdur. Əsərin tam, kamil əlyazması tapılmadığından çap üçün onun əldə olan müxtəlif nüsxələri əsasında vahid mətn hazırlanmışdır. Keçən əsrin 60-cı illərində "Tərix ət-Təbəri", aşkar edilmiş yeni nüsxələrdən əlavələr edilməklə məşhur misirli mətnşünas Mühəmməd Əbu-l-Fəzl İbrahim tərəfindən nəşr olunur. Ət-Təbəri "Tarix"indən Azərbaycana aid materialların tərcüməsi əsərin məhz bu nəşri əsasında yerinə yetirilmişdir.[2,72].

Ət-Təbərinin Azərbaycan tarixinə dair materialları ona görə etibarlı sayılır ki, o özündən əvvəlki müəlliflərin, yəni Əbu Abdullah Məhəmməd ibn Ömər əl Vəqidi, əl-Mədayini, Əbu Minhət, Əbu Məşər və başqalarının əsərlərinə eyni zamanda bu və ya başqa hadisəni yadda saxlayan şahidlərin şifahi məlumatlarına əsaslanmışdır. Ət-Təbərinin istinad etdiyi müəlliflərin demək olar ki, hamısı ərəblərin istilaçılıq səfərlərində (xüsusilə Azərbaycana) bilavasitə iştirak etmiş olduqlarından onların əsərlərində verilən məlumat Azərbaycanın ərəblər tərəfindən işğal edildiyi dövrün tarixini tədqiq etmək üçün son dərəcə qiymətlidir.[3,16].

Bir sıra ərəbdilli müəlliflər həmçinin ət-Təbəri Azərbaycan dedikdə həm Arran adlandırılan indiki Şimali Azərbaycan, həm də Cənubi Azərbaycanı başa düşürdülər. Ət-Təbərinin "Tarix" əsərinin orjinalında ayrıca olaraq Azərbaycanın hüdudları məsələsindən bəhs edilmir. Lakin əsərdə Dərbəndin məhz Azərbaycanın şimal sərhəddi olmasına dəlalət edən çoxsaylı faktlara rast gəlirik. VIII əsrdə baş vermiş hadisələrdən bəhs edən müəllif Azərbaycanın şimal sərhəddinin məhz Dərbənd şəhəri olduğunu qətiyyətlə bildirir. Onun əsərində 707-ci ilə aid aşağıdakı sözlərə rast gəlirik: "Məsləmə ibn Əbdu-l-Malik türklərə qarşı yürüş etdi, Azərbaycan nahiyələrindən olan əl-Baba çatdı və orada qalalar, şəhərlər fəth etdi".[4]

Ət-Təbərinin əsərinin demək olar ki, bütün cildlərində Azərbaycan və onun türk əhalisi haqqında bir sıra maraqlı faktlar mövcuddur.

Ət-Təbərinin qeyd etdiyimiz əsərində 642-ci ildə baş vermiş hadisələrdən bəhs olunarkən Azərbaycan əhalisinin əl-Kəbc (Qafqaz) və ər-Rum (Bizans) dağlarına çəkildiyi göstərilir. Tarixi mənbələrdəki faktların araşdırılması göstərir ki, Sasanilər dövləti ərəblər tərəfindən darmadağın edildikdən sonra öz müstəqil dövlətləri olmayan, lakin tayfa konfederasiyaları halında yaşayan və müəyyən dərəcədə Sasani tabeçiliyində olan Azərbaycan türklərinin bir hissəsinin öz dövlətləri və hökmdarları olan xəzərlərə qoşulmaqdan başqa çarələri qalmırdı. Ərəblərin təzyiqi ilə geri çəkilən Azərbaycan türkləri xəzərlərə qoşulduqdan sonra Xəzər xaqanlığı tərkibində türklərin sayı daha da çoxaldı.[4]

Mənbələrdəki ziddiyyətli faktlara baxmayaraq, ərəblərin Sasani imperiyasının Xəzərsahili vilayətlərinə, o cümlədən Azərbaycana real hücumu yalnız 642-ci ildə baş verən Nihavənd və Həmədanın fəthindən sonra mümkün oldu. Tarixçi ət-Təbərinin dili ilə desək, "O gündən farsların birliyi pozuldu, indən belə hər vilayətin əhalisi düşmənlə yalnız öz vilayəti hüdudlarında döyüşürdü".[5, 20-21].

Təbəri xəzərlərin Arrana hücumu və həmin hücumun səbəbi haqqında da məlumat verir. Həmin məlumata görə hücuma səbəb 792-797-ci illərdə Cibəlin, Təbəristanın, Azərbaycan və Ərməniyyənin canişini əl-Fadl ibn Yəhya ibn Bərməkin xəzər xaqanının qızı olan arvadının Bərdədə ölməsi idi. Xaqan qızının zəhərlənməsindən şübhələnən xəzərlər onun intiqamını almaq üçün Arrana hücum edib ölkəni darmadağın edirlər. Ət-Təbərinin bu məlumatı İbn əl – Əsirin rəvayəti ilə də təsdiqlənir.[5, 50-51].

Ət-Təbəri Babəkin başçılığı altında azadlıq müharibəsinin baş verdiyi vaxtdan az sonra (həmin yüzilllikdə) yaşadığı üçün, tariximizin bu parlaq səhifələrini dolğunluğu ilə şərh etmişdir. Buna görə də həmin əsər Babək haqqında yazan sonrakı orta əsr tarixçiləri üçün çox tutarlı qaynaq olmuşdur. Ət-Təbərinin məlumatına görə, 778-779-cu illərdə məhz bu xəlifənin (əl-Mehdinin dövründə (775-785)) hakimiyyətdə olduğu dövrdə xürrəmilər hərəkatının ilk

sorağı eşidildi. Xürrəmilərin növbəti çıxışını ət-Təbəri 808-809-cu ilə aid edir. Bu dəfə İsfahan, Rey, Həmədan və bəzi yerləri əhatə edən üsyan, ət-Təbərinin məlumatına görə, Azərbaycanda başlanmış, hər yerdən gələn yüz mindən artıq adam üsyana qoşulmuşdu. Lakin Abbasi üsul- idarəsinə qarşı yönəldilmiş bu çıxış da uğursuzluqla nəticələnmiş, "saysız adam öldürülmüş", çoxlu əsir tutularaq, Harunun Karmisindəki qərargahına gətirilmiş, onların bir hissəsi məhv edilmiş, qalanları isə Bağdad bazarında satılmışdır. [6,78., 5,53.,7,265].

Bütün qeyd etdiyimiz faktlarla yanaşı Ət-Təbərinin əsərində 837-ci il avqustun 26-da xürrəmilərin istinadgahının ələ keçirilməsi, Afşinin Bəəz qalasının yerlə yeksan olunması haqqında sərəncam verməsi barədə məlumatlar da öz əksini tapmışdır. [7, 274]

Ət-Təbərinin Azərbaycan xürrəmilərinin xilafətə qarşı üsyanını xarakterizə edən materialları, xəlifə əl-Mötəsim dövründə ərəb ordularının baş komandanı Afşin Heydər ibn Kavusun fəaliyyətini, onun Babəklə əlaqələri, Babəklə və Təbəristan hakimi Məzyərlə danışıqları, Babək qalib gəldiyi təqdirdə xilafəti devirmək və parçalamaq planları, habelə Babəkin Bizans imperatoru Feofillə yazışması haqqındakı məlumatı xüsusilə qiymətlidir.

Ət-Təbərinin məlumatı Xilafətin siyasi həyatında türklərin rolu və Azərbaycanda onların fəaliyyəti haqqında da mühüm material verir. [3,16-17].

Ət-Təbəri Babəklə bağlı hadisələrdən danışarkən türkmənşəli əhalidən bəhs etmişdir. O, yazır ki, 835-ildə Babəkin əsas sərkərdələrindən biri olan Tarxanın Babəkdən icazə alıb Marağa nahiyəsindəki kəndinə getdiyini öyrənən Afşin Marağada yaşayan bir türkə Tarxanı öldürmək haqqında göstəriş verdi. Həmin türk isə Afşinin tapşırığını yerinə yetirərək onun kəsilmiş başını Afşinə göndərmişdi. Tarxan adının türkmənşəli olmasını da xatırlatmaq yerinə düşərdi. [4]

Ərəb yürüşləri istiqamətinin müəyyənləşməsində mühüm rol oynayan amillərdən söhbət açan ət-Təbəri öz əsərində maraqlı bir hekayət verir. Bu hekayətdə xəlifə Ömərin Sasani ordusunun keçmiş sərkərdələrindən biri qədim İran nəslinə mənsub olan, sonralar isə islamı qəbul etməklə canını qurtara bilən mərzban Hörmüzdanla söhbətindən danışılır. Xəlifənin, yürüşləri hansı istiqamətdə davam etdirmək daha məsləhətdir sorğusuna, Hörmüzdan İsfahandan başlamağı lazım görür, çünki onun fikrincə İsfahan-baş, Fars və Azərbaycan isə qanadlardır; baş üzülməlidir ki, qanadlar da ram edilsin. [5, 21].

"Tərix ər rüsul va-l-müluk" əsəri ərəb hərbi komandanlığı ilə yerli əhali arasında bağlanan ilk müqavilələrin mətnləri saxlanılan nadir mənbələrdən sayılır. Bu əsərdə Utba ibn Fərhadın 639-cu ildə "Azərbaycanın, onun düzləri və dağlarının əhalisi" ilə bağladığı mühafizə fərmanı, Bukayrın Muğan əhalisi ilə bağladığı fərman, Surakın Ərməniyyə və əl-Arranın əhalisi ilə bağladığı fərmanların mətni verilmişdir. [1. 200]. Bundan əlavə ət-Təbəri İsfəndiyarla Bukayr arasında baş verən danışığın mətnini verir: "İsfəndiyar soruşur: "Xoşladığın hərb ya sülhdür?" Bukayr cavab verir ki, əlbəttə, sülh. İsfəndiyar deyir: "Onda məni yadında saxla, çünki mən Azərbaycan əhalisi üçün sülh müqaviləsi bağlayıb qayıtmayanacan sənə qarşı heç bir müqavimət olmayacaq". Maraqlı haldır ki, Azərbaycan əhalisi ilə bağlanan müqavilə Azərbaycanın fəthində daha böyük fəaliyyət göstərmiş Bukayrın deyil, Utba ibn Farkadın dilindəndir. Ət-Təbəri bu haqqda yazırdı: Ona tapşırılan torpaqları Bukayr Utbadan xeyli əvvəl fəth etmişdi, lakin müqavilə Utba Bəhramın ordusunu darmadağın etdikdən sonra bağlandı. Buna görə də Azərbaycan əhalisi ilə müqaviləni Utba bağladı; Bu müqaviləyə görə Bukayrın fəth etdiyi vilayət onun tabeliyinə keçdi və özünün fəth etdiyi torpaqlara qatıldı. [5, 22-23].

Bütün bu məlumatlarla yanaşı ət-Təbərinin IX əsrin sonunda yaranmış Azərbaycan feodal dövlətlərinin, xüsusilə, Sacilər dövlətinin tarixi ilə bağlı verdiyi məlumatlar da maraq doğurur. Lakin ət-Təbərinin əsəri 915-ci illərdə baş vermiş hadisələrin təsviri ilə qurtardığına görə Sacilər dövlətinin sonrakı taleyi ilə bağlı məlumatı ət-Təbərinin davamçısı Arib-ibn Səd əl-Kurtubinin "Silat tarix ət-Təbəri" adlı əsəri vasitəsi ilə əldə edirik. [3,17]

Beləliklə Ət-Təbərinin Ərəb xilafətinin tarixinə həsr olunmuş əsərində Azərbaycan ölkəsi haqqında da bir sıra maraqlı faktlar öz əksini tapmışdır.

### *Ədəbiyyat*


1. Məmmədova Ş. “Tarixin nəzəri problemləri.Mənbəşünaslığa giriş”. Bakı, 2008.
2. “Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar”. Bakı, 2005.
3. Bünyadov Z. “Azərbaycan VII-IX əsrlərdə”.Bakı, 2007.
4. http://az.strategiya.az/news.php?id=76572
5. Nailə Vəlixanlı “Ərəb Xilafəti və Azərbaycan”. Bakı, 1993.
6. “Azərbaycan tarixi üzrə qaynaqlar”. Bakı, 2007.
7. “Azərbaycan tarixi”. Yeddi clddə. II c. Bakı, 2007.


## ПРОИЗВЕДЕНИЕ АТ-ТАБАРИ «ТАРИХ АР-РУСУЛ ВА-ЛЬ-МУЛУК» КАК ИСТОЧНИК В ИЗУЧЕНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Намазова Елминаз Магеррам кызы***

***Резюме***


Арабоязычные источники важны для восстановления многовековой истории Кавказа, а также Азербайджана (примерно VII-XV вв.).

Одним из арабоязычных источников по средневековой истории Азербайджана является шедевр ат-Табари под названием «Тарих ар-русул ва-ль-мулюк» (иногда сокращенно «Тарих ат-Табари»).

Данные приведенные в этом произведении являются основным источником, позволяющим представить обзор политической истории Азербайджана VII-IX веков. Кроме этого в произведении содержится богатый материал относительно различных аспектов истории Азербайджана периода стедневековья.

Также в книге ат-Табари даны важные сведения касательно роли тюрков в политической жизни Халифата и их деятельности в Азербайджане.


## AT-TABARI'S WORK "TARIKH AR-RUSUL VA-L-MULUK" AS A SOURCE IN THE STUDY OF THE HISTORY OF AZERBAIJAN

***Namazova Elminaz Maharram***

***Summary***


Arabic-speaking sources are important for restoring the centuries-old history of the Caucasus, as well as Azerbaijan (approximately VII-XV centuries).

One of the Arabic-speaking sources on the medieval history of Azerbaijan is the at-Tabari masterpiece called "Tarikh ar-rusul va-l-muluk" (sometimes abbreviated as "Tarikh at-Tabari").

The data given in this work are the main source that allows us to present an overview of the political history of Azerbaijan of the 7-9th centuries. In addition, the work contains rich material regarding various aspects of the history of Azerbaijan during the day-to-day period.

Also in the book at-Tabari, important information is given regarding the role of the Turks in the political life of the Caliphate and their activities in Azerbaijan.


***Rəyçi:dos.A.Cavadov***
***Azərbaycan tarixi kafedrasının 08 fevral 2021-ci il tarixli iclasının 07 saylı protokolu***
***Daxi olma tarixi 17 fevral 2021 –ci il.***